*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 457-461*
https://doi.org/10.62837/2024.3.457

**SÜLEYMANOVA QÖNÇƏ HÜMBƏT QIZI**
Bakı Slavyan Universiteti
e-mail:qonchasuleymanova@gmail.com

# İSMAYIL ŞIXLININ "DƏLI KÜR" ROMANININ MÜASIR TƏDRISDƏ YERİ

**Açar sözlər:** İsmayıl Şıxlı, "Dəli Kür", "tədris".
**Keywords:** İsmayil Shykhly, "Dali Kura"  teaching.
**Ключевые слова:** Исмаил Шихлы, «Дали Кура», преподавание.

İstedadlı yazıçı İsmayıl Şıxlının "Dəli Kür" romanı Azərbaycan ədəbiyyatı üçün çox dəyərli bir nümunədir. Bu əsər görkəmli yazıçının ilk qələm təcrübəsi deyildi. Yazıçı "Dəli Kür" - dən əvvəl də qələmini roman janrında sınamışdır. Buna baxmayaraq yazıçı bu əsəri ilə roman janrında yeni bir mərhələ yaratmış oldu. İsmayıl Şıxlı bu romanı 1957 – 1967 – ci illər ərzində yazmış olsa da, əsərdə baş verən hadisələr Azərbaycanda XIX əsrdə yaşanmış olan mürrəkəb ictimai-siyasi, tarixi vəziyyəti əks etdirir. Bununla yanaşı romanda milli oyanış və ailə-məişət mövzuları da yer almışdır.

Dəli Kür" romanı ilk növbədə öz bədii zənginliyi ilə ədəbiyyatımızın əvəzolunmaz nümunələrindən hesab olunur. Nəşr olunduğu zamandan etibarən (1962) bədii mühitdə əks-səda doğurdu. 1969-cu ildə isə bu roman əsasında eyni adlı film ərsəyə gəldi. Film ən azı roman qədər diqqət və maraq doğuraraq geniş tamaşaçı kütləsi qazandı.

Bu romanın insanların sevgisini qazanmasının əsas səbəblərindən biri də odur ki, orada təkcə obrazların deyil, müəyyən bir dövr və həmin tarixi dövrdə cəmiyyətin ictimai ziddiyyətləri, psixologiyası öz bədii əksini tapmışdır.

Romandakı hadisələr Azərbaycan kəndlərindən biri olan, Kürün sahilində yerləşən kiçik Göytəpə kəndində baş verir. Hər kəsin hörmət bəslədiyi , nüfuzlu, hər kəsin çəkindiyi mülkədar olan Cahandar ağa digər bir kənddən Allahyar adlı bir nəfərin arvadını qaçırdır. Öz arvadı isə bu xəyanətlə heç cür barışmır. Zərnigar xanım etiraz edir və Mələyi evindən qovmağa çalışır. Bu məsələyə görə Cahandar ağanın böyük oğlu olan Şamxal atası ilə ağır bir mübahisə edib evi tərk edir. Evi tərk edən Şamxal ev tikdirərək dostunu bacısı olan Güləsər ilə evlənir. Atası Cahandar ağa isə bu məsələdə də ona güzəştə getmək istəmir. Onun fikrincə, Güləsər ailəsi onun sosial nüfuzuna uyğun deyil.

Cahandar ağanın Şamxaldan savayı bir oğlu və bir də qızı var. Qızının adı Salatındır. Salatın  qardaşı Şamxaldan fərqli olaraq atasının üzünə ağ ola bilmir. Lakin o da atasının əməlindən narazıdır və elə vəziyyətdədir ki, ata və anasının arasında qalır.

Cahandar ağanın kiçik oğlu Əşrəfdir. O, Qori Müəllimlər Seminariyasında oxuyur. Cahandar ağa oğlunu özü göndərmişdir oxumağa, təhsilə yanaşmasına görə kənddəki digər insanlardan seçilir və bu davranışı çoxunun iradına səbəb olur. Onlardan biri də Molla Sadıqdır.

Romanda böyük maarifçilərdən olan Aleksey Çernayevskinin də prototipi yaradılmışdır. Bu Əhməd obrazıdır. Əsərdə onu "rus Əhməd" və s. kimi tanıyırlar. Cahandar ağanın oğlunu da məhz Əhməd təhsilə meyllәndirmişdir.

Romanın əsas konfliktinə qayıdaq. Allahyar biləndə ki onun arvadı Mələyi Cahandar ağa qaçırıb ondan qisas almaq niyyətinə düşür. Elə bu səbəbdən də Cahandar ağanın ən qatı düşmənlərindən olan Molla Sadıqla birləşib onu nüfuzdan salmaq üçün plan hazırlayır. Allahyar əvvəlcə Cahandar ağanın ot tayalarını yandırır, daha sonra atının quyruğunu kəsir. Onun qızı Salatını qaçırıb təcavüz etmək istəyir. Bu məsələdə ona kömək etmiş olan Həsən ağa öyrənəndə ki Salatın Cahandar ağanın qızıdır, Allahyarı evdən qovaraq qızı öz evinə qaytarır. Məsələ bununla da bitmir, daha əvvəldə qeyd etdiyimiz kimi bu işlərdə onun əsas köməkçisi Molla Sadıqdır. Molla Sadığın Cahandar ağayla düşmən olmaqda başqa bir səbəb də onun təşkil etmiş olduğu müridlər meyxanasını aşkara çıxarması olur. Bu düşmənliyi daha da dərinləşdirən Əhmədlə Molla Sadığın mübahisəsi zamanı Cahandar ağanın Əhmədi müdafiə etməsi olur. Allahyarla əlbir olan Molla Sadıq Cahandar ağanın dul bacısını rüsvay etmək üçün meyxanaya çağırır. Bu məsələdən agah olan Cahandan ağa isə bacısı Şahnigarı öldürür.

Bu hadisələrin ardınca isə Cahandar ağa Allahyarı öldürür. Kazaklar isə bu müddət ərzində Cahandar ağaya məxsus torpaqarı ondan almaq istəyirdilər. Allahyarın öldürülməsi də onlara bəhanə vermiş olur ki, Cahandar ağanı həbs etsinlər. O, təslim olmamaq üçün özünü Kürdə boğur.

Cahandar ağanın qızı Salatınla əlaqəli səhnələr də əsərdə yer alır. Belə səhnələrdən biri Cahandar ağanın qızını öldürmək istədiyi zaman günahsız bacısı Şahnigarın xəyalının onun gözünün qarşısına gəlib daha bir günahsız cana qıymamasını qardaşından istəməsidir.

Romanın müəyyən epizodlarında biz təhsillə bağlı məsələlərin də yer aldığını müşahidə edə bilərik. Əsərdə Çernayeviski ilə Kipianin mütərəqqi fəaliyyətinin və fikirlərinin Qori Müəllimlər Seminariyasında təhsil alan tələbələrə dərindən təsir etdiyi təsvir olunur.

Final səhnəsində Şamxalın ata ocağına qayıtmasına və Əşrəfin də inqilabçılara qarışmasına eyham olunur.

İsmayıl Şıxlının "Dəli Kür" əsəri monumental və çoxşaxəli romandır. Bu roman daha əvvəl də qeyd etdiyimiz kimi ədəbiyyatımızın incilərindəndir. Yazıçı təsvir etdiyi dövrü ütün tərəfləri ilə əks etdirə bilmişdir. Ata-oğul münasibətlərindəki problemlər, yenilik ilə köhnəlik arasındakı konflikt, Çar Rusiyasının işğalçılıq siyasəti və s. bu romanda çox dəqiqliklə vurğulanmışdır. İsmayıl Şıxlı təsvir etmək istədiyi dövrü dəqrindən araşdırıb. Əsərin epizodları bir-biri ilə riyazi dəqiqliklə bağlanır. Bütün bunlar yazıçının peşəkarlığından irəli gəlir. Romanın belə böyük uğur əldə etməsinin

səbəblərindən biri də Cahandar ağanın taleyi ətrafında dövrün epoxasının da əks etdirilməsidir.

İndi isə Cahandar ağadan danışaq. Cahandar ağa obrazı çox mürəkkəb obrazdır. Oxucuların bir qismi onu müsbət, digəri mənfi olaraq dəyərləndirir. Bunun səbələri isə müxtəlifdir. Obrazın ziddiyətli, mübahisəli olması da yazıçının ustalığıdır. O, obrazı dəqiqliklə təsvir etdikdən sonra onun necə dəyərləndirməyi isə oxuculara həvalə edir.

Cahandar ağanın müsbət tərəflərini belə xarakterizə etmək olar: oğlunu təhsili üçün bəzi kəndlilərin qınağı nəzərə almadan Qori Müəllimlər Seminariyasına göndərir. Daha sonra Əhmədlə Molla Sadığın mübahisəsindən "haqqın" tərəfində olur, mərddir, qoçaqdır.

Cahandar ağa şəxsiyyətini dərk etmək üçün onu yetişdirən mühitə nəzər yetirmək vacibdir. Həmin mühitin ən əsas tələbi odur ki, əsrlərdən bəri mövcud olan ailə-məişət qanunlarına riayət edilsin. Bu mühitin ikinci tərəfi isə istənilər cilovlanmaya, başqaları tərəfindən idarə olunmaya qarşı yaranmış dərin nifrətdir. Elə Cahandar ağanı da Çar hökuməti ilə bağlı narahat edən əsas mövzu budur. O deyirdi : "Bir az da keçəndən sonra lap kişiliyimizi də əlimizdən alacaqlar" (4, s.56)

Cahandar ağa obrazını tənqid etmək vacib və lazımdır. Heç bir halda bu şəxsiyyət cılız, qorxaq, ikiüzlü "başqları" kimi olan bir obraz deyil.

Cahandar ağa mülkədardır. O, kənddə söz sahibidir. Elə bu mülkədar xüsusiyyəti oğlu Şamxala və Şamxalın qaynatasına, yəni öz gəmiçi qudasına olan münasibətində meydana çıxır.

Daha sonra kiçik oğlu Əşrəflə olan söhbəti də onun şəxsiyyətini aydınlaşdırmağa yardımçı olur. Əşrəfin torpaqlardan kəndlilərə də pay vermə təklifinə Cahandar ağa qəzəblənir və deyir: "Bunu sənə kim öyrədib? Yoxsa qardaşın lüt qayınatasının qarnını mənim hesabıma doldurmaq istəyir? Bir də mənim yanımda belə sözlər danışma. Mənim sümüyümü it sümüyünə caladığınız bəsdir" (4, s.57)

Lakin onun mənfi tərəfləri də əsər boyu davam edən səhv addımlarından doğur. Cahandar ağa ilk növbədə "kişiliyin" qanunlarını pozaraq başqasının arvadına göz qoyur, qaçırdır. Öz oğlunun ailə qurduğunu ailəyə xor baxır, bacısını günahsız olduğu halda öz ad-sanına qurban edir. Bir sözlə, Cahandar ağa hiss insanıdır.

Əsərdə başqa daha bir hiss insanı da var. Bu obraz Molla Sadıqdır. Lakin onu heç bir halda Cahandan ağaya tay tutmaq olmaz. Lakin onları müqaisə eləmk oar. Çünki Molla Sadığın gördüyü işlər, törətdiyi əməllər Cahandar ağa kimi br insaın həyat qanunlar ilə ziddiyyət yaradırdı.

Yuxarıda qeyd etdik ki, Molla Sadıq hiss insanıdır. Lakin bu xüsusiyyət Cahandar ağada olduğu kimi deyil . Cahandar ağa heç bir halda bir kimsənin bakirə qızı qaçırmazdı, kazaklarla birləşib məkirli plan hazırlamazdı. Bütün bu etdiklərinə görə biz Molla Sadığın namusu ləkələnmiş Allahyara yardım edib onunla birləşməsinə belə haqq qazandıra bilmirik.

Bütün deyilənləri nəzərə alaraq qeyd etmək lazımdır ki, "Dəli Kür" romanının orta və ali məktəblərdə tədris olunması təhsilalanlarda insani keyfiyyətləri formlaşdırmaq baxımından vacibdir. Hal - hazırda "Dəli Kür" romanının bir parçası orta

məktəblərin 11 – ci sinif ədəbiyyat dərsliyində yer almışdır. Düşünürük ki, bu əsər 11 – ci sinif şagirdlərinin yaş xüsusiyyətinə tam uyğundur. Ali məktəblərdə də həmçinin "Dəli Kür" romanı filologiya fakültəsində təhsil alan tələbələrə tam tədris olunur.
Bir nüansa diqqət yetirməyimiz vacibdir ki, istər ali, istərsə də orta məktəblərdə adıçəkilən əsərin tədrisi zamanı obrazlara münasibət bildirməyi təhsilalanların özünə həvalə etmək lazımdır. Fikrimizcə, əsasən də, orta məktəb şagirdlərində şəxsiyyətin formalaşması baxımından bu üsul kifayət qədər lazımlıdır.
Romanın tədiris zamanı yeni üsul və metodlardan, müasir təlim texnologiyalarından istifadə etmək vacib hesab olunur. Romanın tədrisinin şagirdlərdə maraq oyatması üçün müxtəlif maraqlı üsullardan istifadə etmək olar. Əsərdəki obrazlar haqqında şagirdlərin şəxsi münasibətini öyrənmək üçün yaradıcı suallar ilə onlara müraciət edərək, onların marağını romana çəkə bilərik. Roman haqqında müzakirələr aparmaq, yeni üsullarla təhlil etməyə çalışmaq ədəbiyyat dərslərini daha da canlandırmağa yardımçı olacaq.
"Dəli Kür" romanının bu gün də aktual olması, əsərə qarşı duyulan oxucu marağı onun müasir tədrisdəki yerini və mövqeyini bir daha sübut etmiş olur.

**Ədəbiyyat**

1. Hüseynov A. "Nəsr və roman". Bakı, Yazıçı, 1980, 251 səh.
2. İsmayılov Y. "İsmayıl Şıxlı. Həyatı, mühiti, sənəti" . Bakı, "Ayna" mətbuat evi, 1999, 223 səh.
3. Salamoğlu T. İ.Şıxlının bədii nəsri. Bakı: "E.L." NPŞ MMC, 2014, 107-113
4. Şıxlı İ. Seçilmiş əsərləri, İki cilddə, I cild, Bakı, "Şərq-Qərb", 2005, 408 səh.

**Xülasə**

Məqalədə Azərbaycan ədəbiyyatında özünəməxsus iz qoyan yazıçı, publisist, ssenarist İsmayıl Şıxlının əsərlərindən biri olan "Dəli Kür" romanına toxunulmuşdur. Biz romandakı dövrün ziddiyyətlərinə nəzər yetirmişik. İsmayıl Şıxlının haqqında söhbət açılan romanının müasir tədrisdəki yerini müəyyənləşdirməyə çalışmışıq. Romanın müasir dövrümüzdəki əhəmiyyətini vurğulamışıq. Əsərin gənc oxucuların da diqqətini çəkdiyini qeyd etmişik. Adıçəkilən əsərdəki obrazlar sisteminə nəzər yetirmişik. Obrazlar arasındakı ziddiyyətləri bir daha açıb göstərmişik. Çalışmışıq ki, İsmayıl Şıxlının bu ölməz əsərini müasir dövrün tələblərinə uyğun təhlil edək. Qeyd olunan romanın orta və ali məktəblər üçün müəyyən olunmuş tədris proqramında tutduğu yer haqqında söhbət açmışıq. "Dəli Kür" romanının orta və ali təhsil məktəblərində təhsil alan gənclərin dünyagörüşünün formalaşmasında necə mühüm yer tutduğunu bir daha təsdiqləmişik.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 457-461*

**Suleymanova.G**

**THE PLACE OF ISMAYIL SHIKHLI'S NOVEL "DALI KURA" MODERN EDUCATION**

**SUMMARY.**

The article touches on the novel "Dali Kura," one of the works of the writer, publicist, and screenwriter Ismayil Shikhli, who left a unique mark in Azerbaijani literature. We have looked at the contradictions of the era in the novel. We have tried to determine the place of Ismail Shikhlin's novel in modern teaching. We have emphasised the importance of the novel in our modern times. We have noted that the work also attracts the attention of young readers. We have looked at the system of images in the mentioned work. We have once again revealed the contradictions between the images. We have tried to analyse this immortal work of Ismayil Shikhli according to the requirements of modern times. We talked about the place of the mentioned novel in the educational programme for secondary and higher schools. We have once again confirmed how the novel "Dali Kura" occupies an important place in the formation of the outlook of young people studying in secondary and higher education schools.

**Сулейманова.Г**

**МЕСТО РОМАНА ИСМАИЛА ШИХЛЫ «ДАЛИ КУРА» В СОВРЕМЕННОМ ОБРАЗОВАНИИ**

**РЕЗЮМЕ.**

В статье затрагивается роман «Дали Кура», одно из произведений писателя, публициста, сценариста Исмаила Шихлы, оставившего неповторимый след в азербайджанской литературе. Мы рассмотрели противоречия эпохи в романе. Мы попытались определить место романа Исмаила Шихлина в современном преподавании. Мы подчеркнули важность романа в наше время. Мы отметили, что произведение также привлекает внимание юных читателей. Мы рассмотрели систему образов в упомянутой работе. Мы в очередной раз выявили противоречия между изображениями. Мы постарались проанализировать это бессмертное произведение Исмаила Шихли с точки зрения требований современности. Мы говорили о месте упомянутого романа в образовательной программе средней и высшей школы. Мы еще раз подтвердили, какое важное место в формировании мировоззрения молодежи, обучающейся в средних и высших учебных заведениях, занимает роман «Дали Кура».

**Rəyçi: dosent Məmmədov Fərrux**